***Rafiq Nazimoğlu***

## ***Kədər himni***

Qəm-kədərlə yüklənəcək ürəyi,
Qara gözü dolacaqdır dünyanın.
Xatirində qalacaqdı əbədi,
Zalımların vaxtsız qopan tufanı
Oradur,
Liditse,
Babi Yar,
Xatın,
Xocalı,
Daşaltı,
Bakı qırğını.

Haray düşdü, fəryad düşdü cahana,
Qan uddurdu neçə qoca, cavana,
Bir ləkədir bizim əsrə, zamana,
Zalımların zülmü, cəbri divanı
Oradur,
Liditse,
Babi Yar,
Xatın,
Xocalı,
Daşaltı,
Bakı qırğını.

Vətən eşqi səngərlərdən başlayır,
Düşmən topu səngərləri daşlayır.
Vaxtsız ölüm igidləri xoşlayır,
Səpir qəlbimizə həsrət toxumu
Oradur,
Liditse,
Babi Yar,
Xatın,
Xocalı,
Daşaltı,

Bakı qırğını.

Ana görüb, Vətən görüb yağını,
Bələkdəki körpə çəkib dağını.
Can sinirib bütün qara –qorxunu,
Yenə əsrin döndərənməz çarxını
Oradur,
Liditse,
Babi Yar,
Xatın,
Xocalı,
Daşaltı,
Bakı qırğını.

***Nazimoğlu R. Kədər himni // Ağla, xocalım, ağla! – Bakı : Araz, 2006. – S.41-43.***